**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 dekabr tarixli 122s nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

"Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 dekabr tarixli 122s nömrəli Sərəncamında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddən ", növbəti illər üçün hər il oktyabrın 15-dən gec olmayaraq" sözləri çıxarılsın;

1.2. 1.7-ci bənddən ", növbəti illər üçün hər il noyabrın 10-dan gec olmayaraq" sözləri çıxarılsın;

1.3. 2-ci hissədə "qüvvəyə minir" sözlərindən sonra "və 2025-ci il aprelin 1-dək tərtib olunmuş investisiya layihələrinə və onların qiymətləndirilməsinə şamil edilir" sözləri əlavə edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "26" dekabr 2024-cü il

№ 128s